**1-4-cü sualları mətnə əsasən cavablandırın.**

(I) Bir dəfə hətta müəllimlərindən biri Eynşteynin üzünə demişdi ki, "sənin burda olmağın bütün məktəbin nüfuzuna xələl gətirir". (II) Azad düşüncəli şagirdin ***avtoritar*** müəllimlərdən, hərbi qaydaları xatırladan davranış normalarından heç vaxt xoşu gəlməyib. (III) Müəllimləri də Albertə eyni məhəbbətlə yanaşıblar. (IV) Gənc Albert gimnaziyada təhsil alarkən müəllimlərlə münasibətləri həmişə gərgin olub. (V) Eynşteyn gimnaziyadakı əzbərçilik sisteminə qarşı çıxırdı: "Ən ağır cəzaya da dözməyə hazıram, təki məni bu cəfəngiyatı əzbərləməyə məcbur etməsinlər". (VI) Amma o, sərbəst şəkildə öz üzərində çalışır, çox mütailə edir, uşaqlıqdan böyük alim və filosofların əsərlərini oxuyurdu.

**1. Mətndə düzgün ardıcıllığın təmin olunması üçün hansı cümlələrin bir-biri ilə yeri dəyişməlidir?**

A) II - III B) I - IV C) III - VI
D) I – V E) IV - VI

**2. Mətni iki abzas şəklində yazmaq istəsək, ikinci abzas hansı cümlə ilə başlayar?**

A) II B) III C) IV D) V E) VI

**3. Mətn haqqında verilənlərdən biri düzgündür.**

A) Mətndə modal söz və qoşma işlənməyib.
B) Mətndəki bütün sözlərdə orfoqrafik norma gözlənilmişdir.
C) Fərqləndirilmiş söz "əksəriyyətin qəbul etdiyi, cəmiyyətə təsir göstərə bilən nüfuzlu şəxs" mənasındadır.
D) IV cümlədə təyin mübtədaya aiddir.
E) Mətndə tamamlıq vəzifəsində işlənmiş məsdər tərkibi var.

**4. Hansı cümlədəki söz dırnaqda yazılmalı idi?**

A) II B) III C) IV D) V E) VI

**5. Hansı söz birləşməsi başlanğıc formada deyil?**

A) köhnə evim
B) dağın yamacı
C) mənim dostum
D) su borusu
E) sənətin gözəlliyi

**6. Birləşmələrdən birini həm həqiqi mənada, həm də frazeoloji birləşmə kimi düşünmək olar.**

A) haldan düşmək B) cana gəlmək
C) ot yoldurmaq D) yada salmaq
E) gözü doymaq

**7. Mətndə verilmiş məlumata əsasən doğru hökmü müəyyənləşdirin.**

Həşəratyeyən bitkilər cücüləri (az hallarda başqa xırda heyvanları) tutan və onlardan əlavə qida (başlıca olaraq azotlu) mənbəyi kimi istifadə edən çoxillik ot bitkiləridir. Dünyada 500-dək, Azərbaycan Respublikasında 3 növü var. Həşəratyeyən bitkilər şirin su hovuzlarında, bataqlıq çəmənlərdə, azot birləşmələri zəif olan substratlarda yaşayır. Belə şəraitdə zəruri azot aclığını, həmçinin fosfor, kalium və s. maddələrin çatışmazlığını həşəratyeyən bitkilər metamorfozlu yarpaqların köməyi ilə cücülərin hesabına tamamlayır. Bəzi həşəratyeyən bitkilərdə (şehçiçəyi, yağlıc otu və b.) yarpaqların üzəri yapışqanlı şəffaf maye ifraz edən çoxlu vəzilərlə örtülüdür. Cücü bitkinin tutucu aparatı üzərinə düşdükdə vəzilərin sekresiyası güclənir.

A) Azərbaycan Respublikasında Xəzər dənizində həşəratyeyən bitkilərə təsadüf etmək ehtimalı daha çoxdur.
B) Qidalardan lazımi maddələri ala bilmədiyi üçün bu bitkilərin ömrü, əsasən, az olur.
C) Həşəratyeyən bitkilər tərkibində azot az olan qidaların yerləşdiyi ərazilərdə formalaşıb.
D) Cücülər və xırda heyvanlar bu bitkilərin əsas qida mənbəyi hesab olunur.
E) Bu bitkilərdə azot aclığı digər maddələrin – fosfor, kalium kimi maddələrin də azalmasına səbəb olur və nəticədə bitkilərin kök və gövdəsində metamorfoz baş verir.

**8. Vurğusu dəyişməklə mənası dəyişməyən sözü müəyyən edin.**
A) elektrik B) deyin C) dərin
D) əyan E) sərin

**9. Nümunədə buraxılmış durğu işarələri hansı bənddə ardıcıllıqla verilmişdir?**

*Çörək kəsdi dürmək eləmək istədi amma dayanıb birdən-birə Keçəçinin sifətinə baxdı:*

*Sənə Azərbaycanın açarı ləqəbini vermişəm. Göstər öz ləqəbinə layiq olduğunu. Azərbaycan bağlı kiliddi. Onu necə açım*

*Keçəçi sağ əlini saqqalına gəzdirib dedi*

*Mənim fikrim hazırdı.*

A) vergül / vergül / tire / sual işarəsi / tire / qoşa nöqtə / tire
B) vergül / vergül / tire / dırnaqlar / sual işarəsi / qoşa nöqtə / tire
C) vergül / tire / sual işarəsi / tire / qoşa nöqtə / tire
D) vergül / sual işarəsi / tire / qoşa nöqtə
E) vergül / vergül / dırnaqlar / sual işarəsi / tire / qoşa nöqtə / tire

**10. Hansı bənddə qara hərflərlə verilmiş hissə söz birləşməsi deyil?**

A) **Göz təması** gündəlik danışıqların təbii bir hissəsi olaraq əhəmiyyətlidir.
B) **Dost sözü** nə qədər acı olsa da, üzə deməyi bacarmalıdır.
C) **Səhər saatları** zehni iş üçün faydalı olan zamanlardandır.
D) **Kənd adamları**, həqiqətən, zəhmətkeş olmaqla bərabər əliaçıq olurlar.
E) **İş rejimi** düzgün qurulduqda vaxta qənaət etmək olur.

**11. Mənası doğru verilmiş frazeoloji birləşmələri seçin.**

1. ağlına batmaq − inanmaq
2. ürəyindən keçmək − ummaq
3. vəcdə gəlmək − razılaşmaq
4. dili dolaşmaq − çaşmaq
5. əlini bənd etmək – kömək etmək

A) 1, 2, 4
B) 2, 3, 4
C) 1, 5
D) 3, 5
E) 1, 3, 5

**12. _______ ═══════ sxeminə uyğun, mübtədası feili birləşmə ilə ifadə olunmuş ismi xəbərli cümləni müəyyən edin.**

A) Noyabrın sonuncu günü idi.
B) O gün Rəşidin qorxudan rəngi saralmışdı.
C) Azərbaycan dilinin lüğət tərkibinin ən milli hissəsi feillərimizdir.
D) Oğlunun dedikləri ananın qəlbinə toxunmuşdu.
E) Məni gördüyün belə bir dəhşətli vəziyyətə salan sənin əməllərindir.

**13. Saydan sonra işlənən ismin təkdə və cəmdə olmasını nəzərə almaqla doğru və yanlışları seçin.**
1. onlarla + tək isim = doğru
2. bir neçə + cəm isim = doğru
3. bir sıra + cəm isim = doğru
4. xeyli + tək isim = yanlış
5. azacıq + cəm isim = yanlış
6. çoxlu + cəm isim = yanlış

A) doğru – 2, 3, 4 yanlış – 1, 5, 6
B) doğru – 1, 3, 5 yanlış – 2, 4, 6
C) doğru – 1, 2, 5 yanlış – 3, 4, 6
D) doğru – 2, 4, 5 yanlış – 1, 3, 6
E) doğru – 1, 2, 3 yanlış – 4, 5, 6

**14. Mətndə nömrələnmiş cümlələrdən hansı fikrin məntiqi ardıcıllığını *pozur*?**
*I.O, həyatı yaşayaraq öyrənmiş bir yazıçı idi. II.Təcrübələrini və müşahidələrini hər kəslə bölüşərdi. III.Müstəqil şəkildə öyrəndiyi üç xarici dildə yüksək səviyyədə danışa bilirdi. IV.Müəllim kimi fəaliyyət göstərmiş, siyasətlə məşğul olmuş, ölkəsində və xaricdə bir çox yerə səyahət etmişdi. V.Bəzi roman və hekayələri ölümündən sonra nəşr olunmuşdu. VI.Gəzdiyi, gördüyü yerlərin rəngarəngliyini böyük ustalıqla əsərlərində əks etdirmişdi.*
A) II B) III C) IV D) V E) VI

**15. Nöqtələrin yerinə hansı ifadə yazılmalıdır?**
*Sasani şahı I Xosrovun həkimi Hindistandan geri qayıdanda özü ilə maraqlı və ağıl tələb edən bir oyun gətirdi. Oyunun məğzi kvadrat lövhə üzərində müxtəlif fiqurları hərəkət etdirməkdə idi.*

*Oyunun mərkəzi fiquru kral idi. Kral təhlükə ilə üzləşdikdə hücumda olan oyunçu bunu "kral" deyərək nəzərə çatdırırdı. Bu isə, öz növbəsində, "kraldan muğayat olun, o təhlükədədir" demək idi. Farslar "kral" sözü əvəzinə "şah" sözünü işlətməyə başladılar. Şah məruz qaldığı hücumdan qaça bilmədiyi təqdirdə hücuma keçən "şah mat", yəni "..........." deyirdi və bununla da oyun başa çatırdı.*

A) Şah hücuma məruz qalır
B) Kral qalib oldu
C) Şahı qoruyun
D) Kral öldü
E) Kral təhlükədədir

**16. S.Vurğunun *"Azərbaycan"* şeiri ilə M.Arazın *"Azərbaycan – dünyam mənim"* şeirinin məzmun və forma cədvəlindəki uyğunsuzluğu seçin:**

| Məzmun | Forma |
|---|---|
| 1.Şeirdə Azərbaycan sözü rədifdir.<br>2. Bakı, Qazax, Qarabağ kimi yerlərin gözəlliyindən bəhs olunur.<br>3. Füzulinin adı çəkilir. | 4. Bəndlər şəklindədir.<br>5. Heca vəznindədir.<br>6. Uğursuz illərdən üzüağ çıxdığımız göstərilir. |

A) 1, 2, 6 B) 1, 4, 6 C) 3, 5, 6
D) 1, 4 E) 2, 5

**17. Əliağa Kürçaylının "Qaranquş" şeiri ilə səsləşən atalar sözlərini seçin.**
1. Bala baldan şirindir.
2. Ananın canı övladdadır.
3. Anadan əziz yenə anadır.
4. Hər quşa öz yuvası doğmadır.
5. Ana bala ucundan canını oda yaxar.
6. Quşa qızıl qəfəs zindandır.

A) 2, 4, 6 B) 3, 4, 6 C) 1, 2, 5
D) 1, 3, 5 E) 4, 5, 6

**18.** ***"Xan sarayı"*** **və** ***"Ana maral"*** **əsərləri ilə bağlı ortaq fikirlər hansılardır?**
1. Bu əsərlərin aid olduğu janr möcüzəli, fantastik hadisələr əsasında yazılır.
2. Əsər faciəli sonluqla bitir.
3. Hər iki əsərin müəllifi vardır.
4. Bu janra aid olan nümunələrin məzmunca növləri var.
5. Süjetsiz əsərlərdir.
6. Hər iki nümunə nəzmlə yazılmışdır.
7. Əfsanə janrındadır.
A) 5, 6, 7 B) 2, 3, 5 C) 1, 5, 6
D) 1, 4, 5 E) 1, 4, 7

**19. Cədvələ əsasən uyğunsuzluğu tapın.**
"Sultan Səncər və qarı" (N.Gəncəvi) A
"Yaralı bir uşağın dastanı" (N.Gəncəvi) B

| **DOĞRU (A)** | **YANLIŞ (B)** |
|---|---|
| 1. Qarı Sultan Səncər tərəfindən cinayət törətdiyinə görə ittiham olunur.<br>2. Qarı Sultan Səncərin adamları vilayəti soyduğuna görə onu ittiham edir.<br>3. Yoxsul insanlar zalım hökmdarlara qarşı mübarizəyə ruhlandırılmır. | 4. Müəllif təxəllüsündən xitab kimi istifadə etmişdir.<br>5. *"Dost min isə azdır, düşmən bir isə çoxdur"* atalar sözünün təsdiqini tapdığını görürük.<br>6. Təhkiyəyə əsaslanan əsər beytlər şəklində qələmə alınmışdır. |

A) 1, 4 B) 1, 6 C) 3, 6
D) 2, 4 E) 4, 5

**20. Eyler-Venn diaqramına əsasən uyğunluğu seçin.**
**I** "Ağrımaz" ( İ. Nəsimi)
**II** "Söz" ( M. Füzuli)




1. Zahidin fitvasına görə onun dərisini soyurlar və lirik qəhrəman bunu Allahdan gələn bəla adlandırır.
2. Lirik qəhrəmanın bədənini yarsalar da, Allaha olan yaxınlığına görə onun bədəni ağrımır.
3. Təxəllüsünə xitab var.
4. Müəllifin ictimai görüşlərini ifadə etmişdir.
5. Rədifə əsasən adlandırılmışdır.
6. Söz sirlər xəzinəsinin xəzinədarına bənzədilir.
A) 2, 4 B) 1, 3, 5 C) 1, 2, 6
D) 2, 6 E) 2, 4, 5

**21. Ç.Aytmatovun** ***"Manqurt"*** **əsəri haqqında yanlış fikirdir.**
A) "Gün var əsrə bərabər" romanından bir parçadır.
B) Manqurt üçün nəsil, doğma insanlar, vətən anlayışı yoxdur.
C) Manqurt anasını tanımır, düşmən olduğunu düşünüb onu öldürmək qərarına gəlir.
D) Juanjuanlar manqurtları adi qullardan üstün tuturdular.
E) Nayman-Ana oğlunu axtarmaq üçün çox qorxulu bir səfərə tək çıxır.

**22. A.Bakıxanovun “Hikmətin fəziləti” əsərində hökmdarın suallarına qocanın verdiyi cavabların düzgün uyğunlaşdığı bəndi müəyyən edin.**

| | |
|---|---|
| Ən xeyirli nədir? | Hünər |
| Hər şeydən yaxşı nədir? | Yaxşılıq |
| Ən lazımlı nədir? | Həqiqət |

A)  B)  C) 

D)  E) 

**23**. “*Onun qələmi həmişə cilalı və parlaqdır. Həyatımızın elə sahəsi yoxdur ki, qələmi ora nüfuz etməsin. Kənd, şəhər, müharibə, sülh və s. mövzularda yazdığı əsərlərlə oxucuların rəğbətini qazanmışdır.”* **Yuxarıdakı sözlərin müəllifini və hansı ədibimiz haqqında söylənildiyini müəyyən edin.**

A) Məmməd Arif Dadaşzadə – Süleyman Sani Axundov haqqında
B) Elçin – Mir Cəlal haqqında
C) Mir Cəlal – Mirzə İbrahimov haqqında
D) Gülhüseyn Hüseynoğlu – Mikayıl Müşfiq haqqında
E) Bəxtiyar Vahabzadə - Səməd Vurğun haqqında

**24. S.S.Axundovun *“Nurəddin”* hekayəsi ilə bağlı doğru fikri müəyyən edin.**
A) Əsərin ideyası “Yaxşılıq edən yaxşılıq, pislik edən pislik görər” fikri ilə yaxından səsləşir.
B) Gülpərinin çəkdiyi əziyyətlər öz əməllərinin nəticəsi kimi izah edilə bilməz.
C) Cənnətəlinin məqsədi o idi ki, Nurəddini diləndirməklə özü üçün sərvət toplasın.
D) Bahar Nurəddinin qəyyumluğunu əldə etmək üçün Gülpəriyə düşmən kəsilir.
E) Rəhim Nurəddinin ondan daha üstün bir iş gördüyünü dilə gətirir.

**25. H.Ziyanın *“Qarabağda”* şeiri haqqında yanlış fikri müəyyən edin:**
A) Müəllif Qarabağı Azərbaycanın ürəyi hesab edir və bu torpağa göz dikənlərin cəzasına çatacağına inanır.
B) Bu torpağın yetişdirdiyi incəsənət adamlarının adları çəkilməklə Qarabağın mədəniyyət ocağı olduğu fikri aşılanır.
C) Müəllif Şuşanı Qarabağın baş tacı adlandırır.
D) Şeirdə bir nisgil, bədbinlik var: doğma torpaqların işğal altında olması müəllifi kədərləndirir.
E) Əsərdə Qarabağın bizim babaların qədim məskəni olduğu fikri vurğulanır.